**İNSANLAR, TƏBİƏT VƏ İQLİM NAMİNƏ ƏRZAQ SİSTEMLƏRİNİN TRANSFORMASİYASI: FƏALİYYƏTƏ BİRGƏ ÇAĞIRIŞ BƏYANNAMƏSİ**

Ərzaq yerdəki həyat üçün vacibdir. O, sağlamlıq və rifah üçün həyati əhəmiyyətli qida elementlərini təmin edən əsas insan hüququdur. O, insanları ailələri, icmaları, mədəniyyətləri və təbiət aləmi ilə birləşdirir. Ərzaq sistemləri ən azı 4 milyard insan üçün yaşayış şərtlərini təmin edir və çoxsaylı cəmiyyət və ölkələrin sosial və iqtisadi dayağı hesab edilir. Biz ərzaq sistemlərinin transformativ faydalarını aşkara çıxarmaq və ərzaq və qida elementlərinin təhlükəsizliyini təmin etmək, iqlim təsirlərinə qarşı dayanıqlılıq qurmaq, iqlim dəyişikliyinin mənfi təsirlərini azaltmaq və iqlim dəyişikliyinə uyğunlaşmağa töhfə vermək, təbiət və biomüxtəlifliyi mühafizə və bərpa etmək, daha inklüziv, bərabərtərəfli, uğurlu iqtisadiyyatlar və cəmiyyətlər yaratmaq üçün böyük imkana sahibik.
Bu günlərdə ərzaq sistemləri görünməmiş və getdikcə sürətlənən çətinliklərlə üzləşir. Onlar təbiət və biomüxtəliflik itkisi, iqlim dəyişikliyi, yer və torpaq deqradasiyası, humanitar böhranlar və münaqişələrə töhfə verir və onların təsirlərinə məruz qalır. Qlobal ərzaq və kənd təsərrüfatı sahəsi istixana qazı emissiyalarının üçdə bir hissəsindən çoxu[1], şirin su istifadəsinin 70%-ə qədəri və biomüxtəliflik itkisinin təxminən 80%-nə görə məsuliyyət daşıyır. Dayanıqlı olmayan ərzaq sistemləri qida və qida elementləri təhlükəsizliyinə xələl gətirir, zərərverici və patogen mikroorqanizmlərin yayılma riskini artırır və fermerlər və digər qabaqcıl ərzaq sistemləri nümayəndələrinin[2] yaşayış vasitələrini təhlükə altına atır. Çoxsaylı ərzaq idarəetmə sistemləri istehlakçıların qidalandırıcı,
münasib qiymətli, çoxşaxəli, yerli şəraitdə və ekoloji qaydada istehsal edilmiş qidaları əldə etməsini çətinləşdirir. Aşağı keyfiyyətli qidalanma qeyri-infeksion xəstəliklərin aparıcı qüvvəsi və dünya üzrə vaxtsız ölümlərin başlıca səbəbidir. Ərzağın təxminən 30%-i itkiyə gedir və ya israf olunur[3], 900 milyondan çox insan ərzaq çatışmazlığı ilə üz-üzədir və onların çoxu kənd təsərrüfatı sahəsində işləyir, 3 milyarddan çox insan sağlam qidalana bilmir. Bu gün ərzaq sistemləri ilə əlaqədar yaranan gizli sosial, iqtisadi və ətraf mühit xərcləri illik 10 trilyondan ABŞ dollarından çoxdur.

**Böhranların bu formada birləşməsi analoqu olmayan qlobal fövqəladə vəziyyətə dəlalət edir və biz müvafiq təcililik, səy və miqyas çərçivəsində hərəkətə keçməliyik. Biz, aşağıda imza edən Qeyri-dövlət qurumlarının hədəfləyirik ki, 2030-cu ilədək ərzaq sistemləri insanlar, təbiət və iqlim üçün mühüm və ölçüləbilən irəliləyiş əldə edəcək.**

2030 konsepsiyasına nail olmaq məqsədilə qlobal ərzaq sistemini İqlim Dəyişmələri üzrə Paris Sazişi, Kunming-Monreal Qlobal Biomüxtəliflik Çərçivəsi, 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik, Şarm-əl-Şeyx Uyğunlaşdırma Gündəliyi və İrəliləyiş Gündəliyi ilə uyğunlaşdırmaq üçün çalışacağıq. Bu səbəbdən ən geci COP29-a qədər ərzaq sistemləri üçün müddəti təyin olunmuş, uyğunlaşdırılmış, hərtərəfli, qlobal hədəflərə və hərəkətə keçməyə əsas verən, sübuta əsaslanan, yerli səviyyəyə uyğun ərzaq sistemlərinə keçid proseslərinə ehtiyacımız var. Qeyri-dövlət qurumları olaraq, lazımi təqdirdə, bütün bunları strategiya və planlarımıza şamil edəcəyik, iqlim, təbiət və ərzaq sistemləri üçün tədqiqata əsaslanan hədəflər təyin edib onlara çatacağıq, irəliləyiş barədə şəffaf açıqlama verib məruzə edəcəyik və bu müstəvidə müvafiq qabaqcıl təcrübədən istifadə edəcəyik.[4]

Bu proseslərə, müvafiq vəzifə və öhdəliklərimizə müvafiq olaraq, aşağıda qeyd edilənləri icra etmək məqsədilə mühüm fəaliyyətlərə üstünlük verəcəyik:

1. İqlim riskləri və digər şoklar və streslərə uyğunlaşmaq və dayanıqlılıq yaratmaq məqsədilə qabaqcıl ərzaq sistemləri nümayəndələrinə dəstək olmaq;
2. Ərzaq sistemlərini 1.5°C hədəfinə uyğunlaşdıraraq mütləq istixana qazı emissiyalarını azaltmaq (o cümlədən karbon dioksid, metan və diazot monooksid emissiyaları), ərzaq sistemlərində qalıq yanacaq istifadəsindən uzaqlaşmaq, eyni zamanda, xüsusilə inkişaf etməkdə olan ölkələrdə bərpa olunan enerjiyə çıxışı dəstəkləmək;
3. Artmaqda olan aclığı aradan qaldırmaq və sosial baxımdan həssas fərdlər, məişət təsərrüfatları və ərzaq çatışmazlığının böhran səviyyəsini yaşayan qeyri-stabil regionların özlərinin qida ehtiyaclarını qarşılaya bildiklərindən əmin olmaq, aclıq və qidalanma pozuntusunun bütün növlərinə son qoymaq, iqlim dəyişikliyinin bu risklərini gələcəkdə daha da intensivləşdirəcəyini qeyd etmək;
4. Sağlam, qidalandırıcı, dayanıqlı və yerli şərtlərə uyğun qidalanmalara dəstək məqsədilə mövcudluğu, əlçatanlığı və əlverişliliyi təkmilləşdirmək üçün ərzaq idarəetmə sistemlərini dəyişmək, qlobal məqsədlər və milli şərtlərə uyğun şəkildə daha çoxşaxəli protein və enerji mənbələrinə və daha balanslı qidalanmaya

1 Ərzaq sistemləri, o cümlədən kənd təsərrüfatı və enerji istehlakı və onlarla əlaqəli tullantılar və sənaye emissiyaları.
2 Bu termin fermerlər, təsərrüfat işçiləri, balıqçılar, əhliləşdirilmiş heyvanların təsərrüfatı ilə məşğul olanlar, heyvandarlıq təsərrüfatı ilə məşğul olanlar, akvakultura ilə məşğul olanlar, meşələrdən fayda əldə edən insanlar, qida dəyəri zəncirinin
işçiləri, yerli xalqlar, gənclər, qadınlar və ərzaq iqtisadiyyatının ön xəttində dayanan həssas vəziyyətdə olan digər insanları əhatə etmək üçün nəzərdə tutulub.
3 Bunun təxminən 14%-i itkiyə gedir, əlavə 17%-i isə israf olunur.
Böyük korporasiyalar və maliyyə müəssisələri üçün buraya qabaqcıl təcrübə ilə yenilənən və yaxınlaşmanı dəstəkləyən CDP, ISSB, Race to Zero, SBTi FLAG, SBTN, TCFD və TNFD kimi üçüncü tərəf hədəf təyini, açıqlama və hesabat vermə
çərçivələri və təşəbbüsləri vasitəsilə 1, 2 və 3-cü səviyyəli istixana qazları emissiyaları daxildir.

keçmək;
5. İnsanlar, təbiət və iqlim üçün müsbət nəticələr verən ərzaq istehsalı üzrə dayanıqlı yanaşmalara keçidi (o cümlədən aqroekologiya, üzvi, regenerativ və təbiət üçün faydalı yanaşmalar və dayanıqlı akvakultura) və daha da artırılmasını və sənaye balıqçılığının iqlimə dayanıqlı şəkildə idarə edilməsini dəstəkləmək, heyvanların rifahı, havanın keyfiyyəti və ictimai sağlamlığı ilə bağlı birgə faydaları nəzərə almaq;
6. Su və ərzaq sistemlərinin inteqrasiya olunmuş idarəetməsi və su ilə bağlı ekosistemlərin bərpası vasitəsilə suyun dayanıqlılığını, keyfiyyətini və əlçatanlığını artırmaq;
7. Getdikcə artan sərmayələr, müfəssəl tədqiqat və torpaqda karbon miqdarını artıran, torpağın çirklənməsinin qarşısını alan və torpağı deqradasiyasından əvvəlki vəziyyətə gətirən sağlam torpaq təcrübələrinin miqyasının artırılması vasitəsilə torpağın sağlamlığını yaxşılaşdırmaq.
8. O cümlədən deqradasiyaya uğramış torpaqların və otlaqların bərpasına əhəmiyyətli dərəcədə töhfə verən meşələrin və bataqlıqlar, çəmənliklər, savannalar və torfluqlar kimi digər mühüm ekosistemlərin itkisini dayandırmaq və bərpa etməklə təbiəti və biomüxtəlifliyi mühafizə etmək, qorumaq və bərpa etmək;
9. O cümlədən sirkulyar iqtisadiyyat yanaşmaları vasitəsilə ərzaq itkisini və tullantılarını yarıya endirmək cəhdlərini artırmaq;
10. Ərzaq sistemlərinin uyğunlaşmasını və dayanıqlılığını təşviq etmək, eləcə də azaltmaq, maliyyə boşluğunu aradan qaldırmaq üçün çoxtərəfli, özəl, xeyriyyəçilik və qarışıq maliyyə də daxil olmaqla maliyyənin istiqamətini dəyişdirmək, uyğunlaşdırmaq, riskdən azad etmək və maliyyə miqyasını artırmaq, aşağı gəlirli ölkələrin uyğunlaşma ehtiyaclarına və qabaqcıl ərzaq sistemi nümayəndələri üçün birbaşa çıxışın artırılmasına xüsusi diqqət göstərmək.

Biz ərzaq sistemlərinin transformasiyasının kollektiv gündəliyini həyata keçirərkən:
1. Xüsusi diqqəti qadınlara və gənclərə yönəltməklə, səylərimizi qabaqcıl ərzaq sistemləri nümayəndələri üzərində cəmləşdirəcəyik. Burada əsas məqsəd qərarların qəbulunda onların səs və fəaliyyətə malik olmasını təmin etmək, planetar sərhədlərə hörmətlə yanaşaraq və ekosistemləri idarə edərək, dünyanı qidalandırmaqda onların səylərini dəstəkləmək, etiraf etmək və mükafatlandırmaqdır.
2. O cümlədən bərabər yaşayış vasitələrini inkişaf etdirməklə və maraqlı tərəfləri və hüquq sahiblərini onlara təsir edən proseslərə və planlara məqsədyönlü şəkildə cəlb etməklə və marjinal qruplar üçün torpaq və resurslara sahiblik məsələsini həll etməklə ədalətli keçidi təşviq etmək;
3. Yerli Xalqların və Yerli İcmaların Hüquqlarına, o cümlədən onların azad, əvvəlcədən və məlumatlandırılmış razılıq, torpaq və öz müqəddəratını təyinetmə hüquqlarına hörmətlə yanaşmaq, onların dayanıqlı ərzaq sistemlərinin istehsalında oynadıqları aparıcı rolu qəbul etmək;
4. Qeyri-dövlət nümayəndələri ilə Hökumətlər arasında bütün səviyyələrdə öyrənmə, mübadilə və koordinasiya üçün çoxtərəfli maraqlı tərəflərin əməkdaşlığını və imkanlarını təşviq etmək.

Milli Hökumətlər ərzaq sistemlərinin transformasiyasında, o cümlədən Qeyri-dövlət nümayəndələrinin verdiyi töhfələri və bunun nəticəsində də qarşımıza qoyduğumuz hədəfə nail olunmasını sürətləndirə biləcək əlverişli şəraitin yaradılmasında mühüm rol oynayır. Biz Dayanıqlı Kənd Təsərrüfatı, Davamlı Ərzaq Sistemləri və İqlim Fəaliyyətinə dair Əmirliklər Bəyannaməsini təqdir edirik və bu bəyannamənin geniş miqyasda həyata keçirilməsinə dəstək verməyə hazırıq. Biz bütün Hökumətləri 2025-ci ilədək Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini gücləndirməyə çağırırıq. Hökumətlərin kənd təsərrüfatı sahəsinə dair siyasətlərinin istiqamətlərini yenidən müəyyənləşdirməsinə, subsidiyalarla bağlı zərərli təcrübələrdən uzaqlaşmasına, ictimai dəstəyin məqsədlərini yenidən təyin etməsinə, ticarət, maliyyə və tənzimləyici baryerləri həll etməsinə, iqlim və təbiətlə bağlı məcburi risk açıqlamasını təqdim etməsinə əhəmiyyətli dərəcədə ehtiyac və imkanın olmasını vurğulayırıq. Bu, ambisiyaları stimullaşdırmağa, bərabər rəqabətli mühiti təmin etməyə, həvəsləndirmə mexanizmləri yaratmağa, innovasiya və tədqiqatı təşviq etməyə və ərzaq sistemlərinin transformasiyası üçün lazım olan sərmayələri cəlb etməyə yardım edəcəkdir. Biz Hökumətləri ən yaxşı mümkün tədqiqat və sübutlara əsaslanan Milli Ərzaq Sistemləri Proseslərini və uzunmüddətli iqlim strategiyalarını yaradıb yenilədikcə qabaqcıl ərzaq sistemləri nümayəndələrini, şəhərləri, istehlakçıları, landşaft səviyyəsi təşəbbüslərini və bütün digər müvafiq maraqlı tərəfləri məqsədyönlü şəkildə cəlb etməyə və dayanıqlı ərzaq sistemlərinə dair tədbirlərini Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə (NDC), Milli Uyğunlaşdırma Planlarına, Milli Biomüxtəliflik Strategiyaları və Tədbirlər Planlarına, Milli Qidalanma Planlarına və Milli Ərzaq əsaslı Qidalanma prinsiplərinə uyğunlaşdırmağa çağırırıq.

Biz öhdəliyimizə sadiqik və bütün Dövlət və Qeyri-dövlət nümayəndələrini xüsusilə qadınların və gənclərin rolunu vurğulayaraq, yerli xalqların ənənəvi biliyinə və fermerlərin, balıqçıların, heyvandarlıq təsərrüfatı ilə məşğul olanların və əhliləşdirilmiş heyvanların təsərrüfatı ilə məşğul olanların coğrafi biliklərinə hörmət etməyə və dəyər verməyə çağırırıq. Qabaqcıl ərzaq sistemləri nümayəndələrini təmsil edən təşkilatların iqlim danışıqlarında və onlara təsir edən digər müvafiq proseslərdə məqsədyönlü iştirakını təmin etmək və yerli səviyyədə hazırlanmış

alətlərin, həvəsləndirmə vasitələrinin və texniki dəstəyin birgə işləyib hazırlamaq məqsədilə həmin təşkilatların potensialını gücləndirməliyik. Biz iqlim təsirlərinə uyğunlaşan və bu təsirlərdən bərpa olan sosial baxımdan həssas icmalara dəstək məqsədilə İtki və Zərər üçün müvafiq təminatın yaradılmasına çağırış edirik. Biz güc balansının pozulması və cəmiyyətdəki qeyri-bərabərliyin həlli və bütün ərzaq sistemləri işçiləri üçün ədalətli gəlir və əməkhaqqının təminatına olan ehtiyacı qəbul edirik. Biz müvafiq olaraq iqlim riski sığortası, qrantlar və dəstəyin digər növlərinə artırılmış çıxışın olmasına çağırış edirik. Biz, eyni zamanda, ictimai marağı qoruyan tənzimləyici çərçivələr tərəfindən idarə olunan fiziki  infrastruktur və sosial cəhətdən inklüziv texnologiyalara əhəmiyyətli dərəcədə sərmayələrin qoyuluşuna çağırış edirik. Belə olan halda qabaqcıl ərzaq sistemi nümayəndələrinin hazırkı və gələcək nəsilləri ərzaq istehsal etdikcə və təbii sərvətlərə xüsusi diqqət ayırdıqca inkişaf edir və irəliləyir.

Biz, aşağıda imza edən Qeyri-dövlət qurumları qabaqcıl ərzaq sistemləri nümayəndələrini, eləcə də biznesləri, istehlakçıları, şəhərləri, vətəndaş cəmiyyətini, maarifçiləri, sərmayəçiləri, çoxtərəfli müəssisələri, regional hökumətləri, tədqiqat agentliklərini, universitetləri və digərlərini təmsil edirik. Biz bunu kollegial cəhd kimi tanıyırıq və ədalətli ərzaq sistemlərinə keçidə nail olunmasında müxtəlif rolları icra edirik və birgə öhdəlikləri bölüşürük. Bu keçidin yükü qeyri-proporsional şəkildə aşağı gəlirli ölkələrin, icmaların və əhali qruplarının üzərinə düşməməlidir. Biz 2030-cu ilədək bu ərzaq sistemləri transformasiyası prioritetlərinin və digər təsir sahələrinin inkişaf etdirilməsi cəhdlərimizi monitorinq etmək və bu barədə məlumat vermək öhdəliyimizə sadiqik. Biz Hökumətlərlə, o cümlədən bir-birimizlə tərəfdaşlıq qaydasında işləməyə hazırıq. Biz birlikdə insanlar, təbiət və iqlim naminə əsas həllərdən biri kimi ərzaq sistemlərinin potensialını aşkara çıxaran ambisiyalı, birgə gündəliyin icrasında əməkdaşlıq edə bilərik.